*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 168-175*

https://doi.org/10.62837/2026.4.168

**İRADƏ İSRAFIL QIZI KƏRIMOVA**
**BDU, filologiya üzrə fəlsəfə doktoru**

# SOSİAL MEDİADA LEKSİK NORMALARA ƏMƏL OLUNMASININ MONİTORİNQİ

**Açar sözlər:** Sosial media, onlayn sosial şəbəkələr, ədəbi dil normaları, dilin saflığı, leksik normalar, norma pozuntusu, dil qüsurları, monitorinq.

**Ключевые слова:** Социальные сети, онлайн-социальные сети, литературные нормы языка, чистота языка, лексические нормы, языковые нарушения, нарушение нормы, мониторинг.

**Key words:** Social media, online social networks, literary language norms, purity of language, lexical norms, language impairments, monitoring.

Azərbaycan dilinin qloballaşma dövrünün mənfi təsirlərindən qorunması və inkişaf etdirilməsi, dilimizin saflığının və ədəbi dil normalarının qorunması istiqamətində Ulu Öndər Heydər Əliyevin əməyi əvəzedilməzdir. Onun ana dilimizə olan hədsiz sevgisi və misilsiz qayğısı nəticəsində bu gün Azərbaycan dilimiz dünyanın ən inkişaf etmiş dillərindən biridir.

Ana dilimizə layiqincə diqqət yetirib xüsusi qayğı göstərən Ümummilli Lider deyirdi: "Müxtəlif dillərə mənsub olan insanlar Azərbaycan dilini sadəcə eşidərək, onun mənasını o qədər bilməyərək, Azərbaycan dilinin nə qədər şeirə bənzədiyini, xoş ahəngli olduğunu dəfələrlə qeyd ediblər. Biz dilimizlə fəxr etməliyik. Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini gərək ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik" (2,1) Dilimizin saflığının qorunması, ədəbi dil normalarına riayət olunması, tətbiqi və təbliği ilə bağlı Respublikamızın Prezidenti Cənab İlham Əliyev tərəfindən sərəcamlar verilmiş, bir sıra Dövlət Proqramları qəbul edilmişdir. Əsas məqsəd Azərbaycan ədəbi dilinin saflığının və normalarının qorunması ilə bağlı meylləri artırmaq və bütün sahələrdə, eyni zamanda sosial mediada ədəbi dilin qorunmasına yönələn təşəbbüsləri çoxaltmaqdır.

Respublikamızda Beynəlxalq əlaqələrin inkişafı, sosial internetin dünya elminə inteqrasiyası nəticəsində sosial şəbəkələrdə ədəbi dil normalarının qorunmasının nəzarətdə saxlanılmasında çətinliklər yaratdı. Bir tərəfdən internet səhifələrində savadsız insanların ədəbi dil normalarına riayət etmədən yazışmasının, digər tərəfdən savadlı insanların da sözləri "tələsik", lazımsız, savadsız şəkildə yazması dilimizin saflığının qorunmasına, inkişaf etdirilməsinə mane olan məsələlərdən biridir.

Bu gün Azərbaycan dilinin tətbiqi sahəsində bir sıra problemlər özünü ğöstərir. İnformasiya texnologiyalarının sürətli inkişafi, internet, sosial şəbəkələr insanların gündəlik ünsiyyətini köklü şəkildə dəyişmişdir. Sosial şəbəkədə dilin ən səciyyəvi xüsusiyyətlərindən biri olan ixtisar, sadələşmə və səs qənaəti kimi proseslər ədəbi dilin normalarına təsir edir və onların qanunlarını pozur. Unutmaq lazım deyil ki, ədəbi dil sabit norma üzərində qurulan sistemdir (3,3).

Sosial şəbəkələrdən istifadə edənlərin bir qismi ədəbi dil normalarına nəinki rəayət etmirlər, hətta bunu "düzgün" hesab edirlər. Bu baxımdan da dil normaları kobud şəkildə pozulur. Burada tez, yığcam yazıb tez ötürmək bəzi insanlar tərəfindən müasir tələb kimi başa düşülsə də, Azərbaycan dilini lazımi səviyyədə bilməyən, ədəbi dil normalarına bələd olmayan belə savadsız insanlar tərəfindən dilimizin saflığı pozulur və dil qüsurları yaranır. Sosial şəbəkələrdən istifadə edənlərin bir qismi ədəbi dil normalarına nəinki rəayət etmirlər, hətta bunu "düzgün" hesab edirlər. Bu baxımdan da dil normaları kobud şəkildə pozulur.

Qeyd edildiyi kimi, "Sosial şəbəkələr XXI əsrin insanının həyatının ayrılmaz hissəsinə çevrildikcə, bu platformalarda təkcə informasiyanın sürətli mübadiləsi deyil, həm də etik normaların ciddi şəkildə pozulması kimi hallar daha çox müşahidə olunmağa başlayıb. Bu gün virtual aləm insanları bir araya gətirmək yerinə, onları aqressiya, nifrət və təhqirlə zəhərləməyə başlayır. Azərbaycan cəmiyyətində də sosial şəbəkələrdə etik qaydaların yoxa çıxması ciddi bir problem halını alıb. Fikirlərini daha açıq ifadə etmək imkanı verən bu mühit, bir çox insan üçün aqressiyanın və təhqirin gizlənmə yeri olub. Anonimliyin yaratdığı "cəzasızlıq" hissi, insanlar arasında qarşılıqlı hörmətin və mədəni müzakirə imkanlarının zədələnməsinə gətirib çıxarır" (1,3).

Sosial media vasitələrinə internet üzərindən yayımlanan informasiya saytları, sosial şəbəkələr, bloqlar, mikro bloqlar, ani ünsiyyət proqramları, forumlar daxildir. Sosial şəbəkələr bizim fiziki dünyamızın virtual formasıdır. İnformasiya kommunikasiya texnologiyalarının inkişafında əsas hadisə sosial şəbəkə saytlarının ("Facebook", "Twitter", "LiveJournal", "MySpace", "Classmates"və s.) populyarlığının sürətlə artmasıdır. Artıq sosial şəbəkə saytları internetin ayrılmaz tərkib hissəsinə çevrilib. Sosial şəbəkələrin auditoriyası genişlənir, yaş tərkibinə görə daha müxtəlif olur. Lakin bununla yanaşı, sosial şəbəkələrdən yararlanan bəzi insanlar ədəbi dil normalarının qanunlarını kobud şəkildə pozaraq söz və ifadələri istədikləri kimi, istədikləri yerdə yazmaqla savadsızlıqlarını nümayiş etdirərək dilimizin saflığını, təmizliyini pozurlar. Ana dilimizin imkanlarından yerli-yerində, düzgün, normalara uyğun istifadə etmək hər birimizin nəzakət, mədəni səviyyə göstəricimizdir.

Sosial şəbəkələrdə söz və ifadələrin yerində və kontekstə uyğun işlədilməməsi, sözlərin lüğəvi mənalarına uyğun olmadan istifadəsi, ümumişlək

leksikamızda qarşılığı olduğu halda əcnəbi söz və ifadələrdən yersiz istifadə leksik normanın tələblərini pozan faktorlardır.

İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı bəzən öz dilimizdə qarşılığı olan sözlərin olmasına baömayaraq, yeni əcnəbi sözlər də dilimizə elə sosial media üzərindən keçir. Bu, ondan irəli gəlir ki, sadə əhali gündəlik işlətdiyi sözləri sosial mediaya köçürürlər. Artıq sosial mediada dəfələrlə işlədilən yeni sözlər və ya ifadələr jurnalistlər, yazarlar, qələm əhli tərəfindən mənimsənilir, onlar da öz yazılarında, məqalələrində istifadə edirlər. Bununla da ədəbi dilin süzgəcindən keçməyən sözlər "məşhurlaşır". Beləcə, yad sözlər dilimizə daxil olur. Bu sözlər dilimizin bədii xüsusiyyətlərini korlayır.

Bu gün sosial şəbəkələrdən qərəzli istifadə hallarına daha çox rast gəlinir. Bu şəbəkələrdə tirajlanan, istifadəçilərində fikir ayrılıqları, təzad, fobiya yaradan informasiyaları silahsız müharibə adlandıranlar qənaətlərində haqlıdırlar. Bu sahədə etik normalara riayət olunmasını tənzimləyən tədbirlər müəyyənləşdirilib tətbiq olunsa da hələ də qaydaların pozulması halları mövcuddur. «Youtube», «Google,» «Tvitter», «Facebook» kimi sosial şəbəkələrin ölkə qanunvericiliyinin tələblərinə uyğun fəaliyyətini təmin etmək məqsədilə qanunvericilikdə müəyən şərtlərin olmasına baxmayaraq hələ də sosial şəbəkələrdən, internet tv-lərdən öz şəxsi maraqlarına uyğun, başqalarının heysiyyətinə toxunan, mənəviyyatına zərbə vuran və məhkəmələrlə nəticələnən hallar mövcuddur(6,3).

Azərbaycan Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi başqa sahələrdə olduğu kimi, internet resurslarında da dövlət dininin tətbiğinə, ədəbi dil normalarına rəayət olunmasına nəzarəti həyata keçirir. Monitorinq Mərkəzinin işi ədəbi dil normaları ilə bağlı materialların toplanılması, onların elmi dəqiqliyinin yoxlanılması, araşdırılması, təhllilərin aparılmasından ibarətdir. Əsas istiqamətlərdən biri fonetik, leksik, dil-üslub, qrammatik və s. pozuntularla bağlıdır. Azərbaycan ədəbi dil normalarının qorunmasının yoxlanılması, tədbirlər həyata keçirilməsi, ədəbi dilin tətbiqi zamanı yol verilən qusurların cəmiyyətin diqqətinə çatdırması, həmin qüsurların aradan qaldırılması monitorinqlərin keçirilməsini tələb edir.

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin təşkilatçılığı ilə "Saytların dil mənzərəsi" adlı tədbir keçirilib. Tədbirdə Monitorinq Mərkəzinin Müşahidə Şurasının üzvləri, görkəmli dilçi alimlər, ziyalılar, eləcə də dövlət və özəl saytların nümayəndələri iştirak ediblər.

Tədbirdə bildirilib ki, keçən dövr ərzində Azərbaycan dilinin saflığının qorunması və dilimizin düzgün tətbiqi ilə bağlı bir sıra tədbirlər həyata keçirilib, 60-dan artıq saytın dili ilə bağlı aparılan monitorinqlərin nəticələrinin əks olunduğu hesabatda 5 mindən artıq dil faktının aşkarlandığı diqqətə çatdırılıb. Tədbirdə iştirak edən digər qonaqlar saytların dil mənzərəsini əks etdirən hesabatın nəticələrinə münasibət bildirərək internet resurslarında ana dilinin təbiqi ilə bağlı yaranan

problemlərə toxunub, onların aradan qaldırılmasının həlli yolları barədə fikirlərini bölüşüblər (5,1).

Monitorinqlərin aparılmasında əsas məqsəd saytlarda ədəbi dil normaları (leksik, orfoqrafik, qrammatik) pozuntularının qarşısının alınması, dil-üslub pozuntularının aradan qaldırılması, dilimizin saflığının qorunması və inkişaf etdirilməsidir.

Monitorinq zamanı ən çox müşahidə edilən dil xətaları aşağıdakılardır:vulqar sözlər, ədəbi dil normalarına uyğun gəlməyən və zəruri ehtiyac olmadan əcnəbi sözlərdən istifadə edilir: "novostroyka", "çekist", "obşak", "xlebnik", "padlo", "srok", "dıxaniyem", "kayf", "aktivist" - "Publika.az" "vetnamka" - "Qafqazinfo.az"; fərqli şəkildə yazılan sözlər:"Tel-Əviv", "diaspora", "labaratoriya", "otel" və sairə.

Sosial mediada ciddi dil pozuntularına yol verilən səhvlərin 80 faizindən çoxu söz, ifadə və üslub səhvləridir. Burada ədəbi dilin norma pozuntuları müxtəlif səviyyələrdə özünü göstərir: leksik, üslubi və qrammatik norma pozuntularına rast gəlinir. Belə səhvlər ya savadsızlıqdan, ya da "tələsik yazmaq vərdişindən" irəli gəlir ki, bu da ədəbi dil normalarının qanunlarına ziddir.

Monitorinqlərin keçirilməsi nəticəsində sosial şəbəkələrdə əsasən müşahidə olunan leksik səhvləri təqdim edirəm: hər kəs öz bilik səviyyəsində yazır və buna görə də ədəbi dil normaları kobud şəkildə pozulmuş olur, sözlər istənilən kimi yazılır, yəni düzgün yazı qaydalarına əməl olunmur, tələffüz etdikləri kimi yazıya alınır, nitqdə dialekt, şivə, hətta loru, vulqar, tabu sözlər belə işlədilir, sözlər mənalarına görə düzgün istifadə edilmir və sairə.

"Xalq qəzeti" redaksiyasında AMEA Nəsimi adına Dilçilik İnstitutunun Nitq mədəniyyəti və monitorinq şöbəsinin əməkdaşları ilə keçirilən görüşdə ölkə mediasında dil, üslub normalarına necə əməl edilməsi diqqət mərkəzində olub. Qəzetin baş redaktoru Əflatun Amaşov qonaqları salamlayaraq Dilçilik İnstitutunun müstəqillik dövründə dövlət dilinin rəsmi statusunun bərqərar edilməsində, Azərbaycan dilinin qorunması və zənginləşdirilməsində müstəsna xidmətini qeyd etdi. Qeyd edildi ki, şöbə əməkdaşları mediada, reklamlarda, eləcə də cəmiyyətin dildən geniş istifadə edən digər sferalarında Azərbaycan dilinin fonetik, leksik və qrammatik normalarına riayət olunmasının təmin edilməsini daim izləyir, dəyərləndirir. Mediada Azərbaycan dilinin normalarına əməl edilməsi səviyyəsini müəyyənləşdirmək məqsədilə ardıcıl monitorinqlər keçirilir, nəticələr təhlil edilir və jurnalistlər üçün müvafiq dil təlimləri təşkil edilir. Aparılan geniş diskussiyada redaksiya əməkdaşları aparılmış monitorinqin onlar üçün faydalı olduğunu dedilər, dilin inkişafı tələbindən irəli gələn bir sıra hallara elmi yanaşma bildirilməsinin zəruriliyini söylədilər. (4,2).

Monitorinqlərin əsas nəticələrindən məlum olur ki, sözlərin yanlış seçimi və leksik səviyyədə sözlərin mənasına uyğun olmayan (dar və ya yanlış) istifadəsi,

ədəbi dildə işlədilməsi məqsədəuyğun olmayan loru, kobud sözlərin yayılması, operativlik xatirinə ədəbi dil normalarından yayınma və tələsik nitq formalarının (elektron ünsiyyət dili) genişlənməsi qüsurları hələ də mövcuddur. Bu qüsurların aradan qaldırılması üçün təkcə Monitorinq Mərkəzi deyil, ixtisasından asılı olmayaraq hər bir azərbaycanlı çalışmalı və səy göstərməlidir.

Dilin saflığının qoruması, yanlış ifadələrin qarşısının alınması və mediada ədəbi dil normalarına əməl olunmasının zəruriliyi istiqamətində Monitorinq Mərkəzi tərəfindən maarifləndirmə işləri aparılır. Sosial şəbəkə səhifələrində (Facebook, Instagram, Youtube, TikTok, onlayn xəbər portalları, bloqlar, forumlar və s.), ədəbi dil normalarının qanunlarına riayət edilməyən, qüsurlara yol verilən hər bir sahədə monitorinqlər Azərbaycan dilinin dövlət dili kimi inkişafı və qorunması üçün vacibdir.

Ədəbi dil normalarının qanunlarına riayət edərək ana dilindən düzgün istifadə etmək hər birimizin vətəndaşlıq vəzifəsi və mənəvi məsuliyyətidir.

**Ədəbiyyat**

1. Etik normaların əridiyi aləm. "Olaylar" qəzeti. 25 oktyabr 2024.
2. Ədəbi dilin düzgün istifadəsinə yönələn təşəbbüslər.Newscenter.az.14.10.2024.
3. Ədəbi dil normaları bütün sahələrdə düzgün tətbiq olunmalıdır. "Azərbaycan" qəzeti, 27 noyabr 2025.
4. Media ana dilinin saf güzgüsü olmalıdır. "Xalq" qəzeti, 17.05.2024.
5. Saytlarda aparılan monitorinqlərin məqsədi açıqlandı. NOCOMMENT.az, 09 İyul 2021.
6. Sosial şəbəkələrdə etik normalara əməl olunurmu? "İki sahil" qəzeti, 21 iyun 2025.

**Xülasə**

Məqalədə sosial mediada ana dilimizin əsas problemlərindən biri olan leksik normaların pozulmasının monitorinqi tədqiq edilir. Leksik normaların bu qədər sistematik və kobud surətdə pozulmasının əsas səbəbləri keçirilən monitorinqlər vasitəsilə araşdırılır.

Ulu Öndər Heydər Əliyevin ana dilimiz haqqında fikirləri məqalədə öz əksini tapmışdır. Dilimizin saflığının, ədəbi dil normalarının qorunması istiqamətində Ümummilli Liderin əməyi əvəzedilməzdir.

Dilimizin saflığının qorunması, ədəbi dil normalarına riayət olunması, tətbiqi və təbliği ilə bağlı Respublikamızın Prezidenti Cənab İlham Əliyev tərəfindən sərəcamlar verilmiş, bir sıra Dövlət Proqramları qəbul edilmişdir. Əsas məqsəd Azərbaycan ədəbi dilinin saflığının və normalarının qorunması ilə bağlı meylləri

artırmaq və bütün sahələrdə, eyni zamanda sosial mediada ədəbi dilin qorunmasına yönələn təşəbbüsləri çoxaltmaqdır.

Araşdırılır ki, Azərbaycan ədəbi dil normalarının qorunmasının yoxlanılması, tədbirlər həyata keçirilməsi, ədəbi dilin tətbiqi zamanı yol verilən qusurların cəmiyyətin diqqətinə çatdırması, həmin qüsurların aradan qaldırılması monitorinqlərin keçirilməsini tələb edir.

Məqalədə qeyd edilir ki, sosial şəbəkələrdən istifadə edənlərin bir qismi ədəbi dil normalarına nəinki rəayət etmirlər, hətta bunu "düzgün" hesab edirlər. Bu baxımdan da dil normaları kobud şəkildə pozulur. Sosial şəbəkələrdə tez, yığcam yazıb tez ötürmək bəzi insanlar tərəfindən müasir tələb kimi başa düşülsə də, Azərbaycan dilini lazımi səviyyədə bilməyən, ədəbi dil normalarına bələd olmayan belə savadsız insanlar dilimizdə qüsurlar yaradır. Bu qüsurların aradan qaldırılması üçün təkcə Monitorinq Mərkəzi deyil, ixtisasından asılı olmayaraq hər bir azərbaycanlı səy göstərməlidir.

Nəticədə göstərilir ki, sosial şəbəkə səhifələrində (Facebook, Instagram, Youtube, TikTok, onlayn xəbər portalları, bloqlar, forumlar və s.), ədəbi dil normalarının qanunlarına riayət edilməyən, qüsurlara yol verilən hər bir sahədə monitorinqlərin keçirilməsi Azərbaycan dilinin dövlət dili kimi inkişafı və qorunması üçün vacibdir. Dilin saflığının qoruması, yanlış ifadələrin qarşısının alınması və mediada ədəbi dil normalarına əməl olunmasının zəruriliyi istiqamətində Monitorinq Mərkəzi tərəfindən maarifləndirmə işləri aparılır. Ana dilimizdən düzğün istifadə edərək ədəbi dil normalarının qanunlarına düzgün riayət etmək hər birimizin vətəndaşlıq vəzifəsi və mənəvi məsuliyyətidir.

**Резюме**

## МОНИТОРИНГ ПРИМЕНЕНИЯ ЛЕКСИЧЕСКИХ НОРМ В СОЦИАЛЬНЫХ СЕТЯХ

**Керимова Ирада Исрафил кызы**

В статье рассматривается мониторинг нарушений лексических норм в социальных сетях, что является одной из главных проблем нашего родного языка. Основные причины таких систематических и грубых нарушений лексических норм расследуются в ходе мониторинга.

В статье отражены ценные слова и мысли великого лидера Гейдара Алиева в целях защиты чистоты и литературных языковых норм родного языка.

Президент нашей Республики Ильхам Алиев издал множество указов и принял ряд государственных программ, направленных на защиту чистоты нашего языка, соблюдение, применение и популяризацию литературно-языковых норм. Главная цель – активизировать тренды, связанные с защитой норм азербайджанского литературного языка, и расширить инициативы,

направленные на защиту литературного языка. Выявлена необходимость мониторинга для проверки соблюдения норм Азербайджанского литературного языка и для принятия соответствующих мер нарушений лексических норм в социальных сетях. Исследования показывают, что некоторые пользователи социальных сетей не только не придерживаются норм литературного языка, но даже считают его «правильным». Таким образом, языковые нормы грубо нарушаются. Хотя быстрая, лаконичная и оперативная публикация в социальных сетях воспринимается некоторыми людьми как современное требование, такие неграмотные люди, не владеющие азербайджанским языком на должном уровне и не знакомые с нормами литературного языка, создают языковые недостатки. В статье указывается, что в целях сохранения чистоты языка Центр Мониторинга проводит информационно-просветительские мероприятия по предотвращению некорректных выражений и необходимости соблюдения норм литературного языка в социальных сетях. Не только Центр мониторинга, но и каждый азербайджанец, независимо от специальности, должен прилагать усилия для устранения этих недостатков. Центр мониторинга проводит информационно-просветительские мероприятия по предотвращению некорректных выражений и необходимости соблюдения литературных норм языка в социальных сетях для сохранения чистоты языка.

В результате показано, что мониторинг во всех областях, где не соблюдаются законы литературно-языковых норм и где допускаются нарушения на страницах социальных сетей (Facebook, Instagram, Youtube, TikTok, онлайн-новостные порталы, блоги, форумы и т. д.), важен для чистоты, развития и защиты азербайджанского языка как государственного языка.

Соблюдая нормы литературного языка правильно использовать свой родной язык в каждой сфере, а также в социальных сетях гражданский долг и моральная ответственность каждого из нас.

**Kerimova İrada İsrafil**

**Summary**

**MONITORING THE IMPLEMENTATION OF LEXICAL NORMS IN SOCIAL MEDIA**

The article examines the monitoring of lexical norm violations on social media, which is one of the main problems of our native language. The main reasons for such systematic and gross violations of lexical norms are being investigated through monitoring.

The thoughts of the Great Leader Heydar Aliyev about our native language are reflected in the article. The work of the National Leader is irreplaceable in preserving the purity of our language, literary language norms, and the absence of foreign influences on our language.

The thoughts of the Great Leader Heydar Aliyev about our native language are reflected in the article. The work of the National Leader is irreplaceable in preserving the purity of our language, literary language norms, and the absence of foreign influences on our language.

Numerous orders have been issued by the President of our Republic, Mr. Ilham Aliyev, and a number of State Programs have been adopted regarding the protection of the purity of our language, adherence to, application and promotion of literary language norms. The main goal is to increase trends related to the protection of the norms of the Azerbaijani literary language and to increase initiatives aimed at the protection of the literary language on social media.

It is shown that monitoring is required to verify the protection of Azerbaijani literary language norms, implement measures, bring to the attention of society the shortcomings made during the application of the literary language, and eliminate these shortcomings. Not only the Monitoring Center, but every Azerbaijani, regardless of their specialty, must make efforts to eliminate these shortcomings.

İt is being studied that some users of social networks not only do not adhere to literary language norms, but even consider it "correct." In this regard, language norms are grossly violated. Although writing quickly, concisely, and transmitting quickly is understood by some people as a modern requirement, our language is being corrupted by such illiterate people who do not know the Azerbaijani language at the proper level and are not familiar with the norms of the literary language. Some social media users not only do not adhere to literary language norms, but even consider it "correct.". In this regard, language norms are grossly violated. The Monitoring Center is conducting awareness-raising activities to prevent false statements and to ensure compliance with literary language norms in the media in order to preserve the purity of the language.

As a result, it is shown that monitoring in every area where the laws of literary language norms are not observed and where defects are made on social network pages (Facebook, Instagram, Youtube, TikTok, online news portals, blogs, forums, etc.) is important for the development and protection of the Azerbaijani language as the state language. It is the civic duty and moral responsibility of each of us to use our native language correctly on social media, adhering to the laws of literary language norms.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Cavanşir Muradov**